**Kərim TAHİROV**

*Azərbaycan Milli Kitabxanasının direktoru, professor*

## ÇİNGİZ AYTMATOV ƏSƏRLƏRİNİN AZƏRBAYCANDA NƏŞRİ

2018-ci il bir çox əlamətdar hadisələrlə yanaşı, dünya şöhrətli söz sənətkarı, görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun 90 illik yubileyi ilə də yadda qalacaqdır. Bu il ədibin həm də dünyadan köçməsinin tarixi yuvarlaqlaşır. Artıq 10 ildir ki, Çingiz Aytmatov aramızda deyil. Amma elə şəxsiyyətlər, elə yaradıcı insanlar var ki, onlar öz fiziki ömürlərini bitirsələr də, həm əzizlərinin, həm də başqalarının, xüsusilə oxucularının qəlbində, ömründə yaşamağa davam edirlər və beləliklə, əbədi yaşamaq haqqı qazanırlar. Həyat həqiqətlərini ən incə məqamlarına qədər dərk və ifadə etmiş, realizm və romantizmin mürəkkəb ədəbi-bədii elementlərinin sintezinə nail olaraq təkrarolunmaz əsərlər yaratmış və bununla da qırğız və dünya ədəbiyyatını hiss ediləcək dərəcədə zənginləşdirməyi bacarmış Çingiz Aytmatov da məhz belə insanlardandır. Ədibin öz təbirincə desək, insan onu sevənlər durduqca ölmür, çünki sevgi – bir insanın özünü başqasında itirməsidir, başqasında axtarması, başqasında davam etməsidir.

Çingiz Aytmatov 12 dekabr 1928-ci ildə Qırğızıstanın Şəkər kəndində anadan olmuşdur. 1948-1953-cü illərdə Aytmatov Bişkekdəki Kənd Təsərrüfatı Universitetində ali təhsil aldıqdan sonra, 3 il müddətinə Qırğız SSR-in Maldarlıq Elmi-Tədqiqat İnstitutunda çalışmış, 1956-cı ildə isə Moskvadakı Ali ədəbiyyat kursuna yazılmışdır. Ədəbi yaradıcılığa hələ tələbə ikən 1951-ci ildə dövri mətbuatda qırğız dilində ilk əsərlərini yazmaqla başlamışdır. Ali ədəbiyyat kursu müddətində ədibin artıq bir neçə əsəri, o cümlədən "Oktyabr" jurnalında "Üz-üzə" əsərinin rus dilinə tərcüməsi, "Yeni dünya" jurnalında bir neçə hekayəsi və "Cəmilə" povesti dərc olunmuşdur. Müəllifinə dünya şöhrəti qazandırmış bu əsər sonralar neçə-neçə nəslin stolüstü kitabı olacaqdı. Təsadüfi deyil ki, povesti fransız dilinə tərcümə etmiş dünya şöhrətli fransız yazıçısı Lui Araqon, "Cəmilə"ni "dünyanın ən gözəl eşq hekayəsi" adlandırırdı.





Yazıçı ədəbi-bədii yaradıcılıqla yanaşı, ictimai-siyasi fəaliyyətlə də məşğul olmuşdur. O, 1990-1994-cü illərdə SSRİ-nin və sonradan Rusiyanın Benilüks ölkələrindəki səfiri, 1994-cü ildən 2008-ci ilin martınadək isə doğma Qırğızıstanın həmin ölkələrdəki və eyni zamanda Fransadakı səfiri olmuş, ölkəsinin xarici siyasətinin inkişafında mühüm xidmətlər göstərmişdir.

Çingiz Aytmatov müxtəlif ali dövlət vəzifələrinin də öhdəsindən daim layiqincə gəlmişdir. O, SSRİ Ali Sovetinin deputatı, Qırğızıstan Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, Yazıçılar İttifaqının və Kinematoqrafistlər İttifaqının katibliyinin üzvü, Asiya və Afrika ölkələri ilə Sovet Həmrəylik Komitəsinin rəhbərlərindən biri, "Xarici ədəbiyyat" jurnalının baş redaktoru vəzifələrində çalışmışdır. Çingiz Aytmatov 1963-cü ildə "Gün var əsrə bərabər" romanı ilə ədəbiyyat sahəsində Lenin Mükafatına layiq görülmüş yeganə qırğız yazıçısı olmuşdur.

Çingiz Aytmatovun yaradıcılığı dərin milli xüsusiyyətlərə malik olduğu kimi, ümumbəşəri mahiyyət və məzmun da ifadə edir. Onun bədii fəaliyyəti realizmin sonsuz bədii və idraki imkanlarını özündə birləşdirməklə, dünya ədəbiyyatında böyük hadisəyə çevrilmişdir.

60 ildən artıq yazıçılıqla məşğul olmuş Çingiz Aytmatov əsərlərində çox əhəmiyyətli və aktual mövzulara toxunmuş, gördüklərini, yaşadıqlarını milli ənənələrin süzgəcindən keçirərək xalqın ədəbiyyatını yaratmışdır. O, biri-birindən maraqlı əsərlərində qırğız xalqının adət-ənənələrini, müharibə illərinin məşəqqətlərini əks etdirmiş, məhəbbət, dostluq, qəhrəmanlıq kimi mövzuları özünəməxsus istedad və fəhmlə qələmə almışdır.

Aytmatov ümumbəşəri bədii təxəyyül və fövqəladə yaradıcı təfəkkür sahibi kimi təkcə öz ölkəsinin, öz xalqının deyil, eyni zamanda, dünyanın və dünya xalqlarının yazıçısı idi. Qələmə aldığı əsərlərdə həyati hadisələri bütün gerçəkliyi ilə, xüsusi ustalıq və məharətlə oxucuya çatdıra bilmişdi. Zəmanəmizin klassiki olan Çingiz Aytmatovun əsərləri insan həyatının fəlsəfi problemlərini işıqlandırır, insanları düşündürür, onları sabaha inamla baxmağa səsləyir, qəhrəmanları həyatın sınağından hünərlə, alnıaçıq çıxarır. Çingiz Aytmatovu müasiri olduğu yazıçılardan fərqləndirən əsas xüsusiyyətlərdən biri də o idi ki, dünyəvi problemlərə sadə insanların gözü

ilə baxa bilir, onlara həqiqi qiymətini verir və insanları narahat edən bəşəri suallara cavab axtarırdı.

Yazıçı sadə bir insanı təkcə əməli, həyata keçirdiyi işi ilə deyil, mənəvi aləmin bütün zənginlikləri, daxili dünyası və qəribəlikləri ilə mühüm bir ədəbiyyat hadisəsi səviyyəsində təqdim edirdi. Çingiz Aytmatov yeganə Sovet yazıçısı idi ki, sosialist cəmiyyətində yaşayaraq sovet gerçəkliyinin sədlərini aşa bilən böyük ədəbiyyat yaratmış, dissident olmadan belə, Qərb oxucusunda çox böyük maraq oyada bilmişdi. Məhz həmin dünyəvi şöhrətin və başqa xalqların ona verdiyi qiymətin məntiqi nəticəsi idi ki, Aytmatov diplomat, səfir işlədiyi bütün yerlərdə istər dövlət nümayəndələrinin, istərsə də yerli ictimaiyyətin haqlı rəğbətini qazanırdı. O da təsadüfi deyil ki, romanları, hekayələri 160-dan çox dilə tərcümə edilmiş yazıçının əsərlərini "Yer üzündə yaşayan bütün insanlar haqqında ensiklopediya" adlandırırlar.

Çingiz Aytmatov Azərbaycan oxucusu üçün də doğma, sevilən və qiymətli söz ustadlarındandır. O, Azərbaycana dəfələrlə səfərlər etmiş, dost hesab etdiyi Azərbaycan xalqına xüsusi ehtiramını çatdırmışdır. Aytmatov Ümummilli lider Heydər Əliyevin böyük siyasətdəki yeri və xalqına xidmətləri haqqında demişdir: "Heydər Əliyev həqiqətən də, tarixi, hətta əfsanəvi bir şəxsiyyətdir. Bu, sovet dövründə də belə idi, bugünkü MDB məkanında, xeyli çətinləşmiş müasir dünya şəraitində də belədir. Heydər Əliyev hər zaman xalqının xidmətində olmuşdur." Bundan başqa, yazıçının yaradıcılığının nəhəngliyi ondadır ki, o, Azərbaycanın görkəmli yazarları, mütəfəkkirləri, mədəniyyət və incəsənət xadimləri – M.F.Axundov, C.Məmmədquluzadə, S.Vurğun, R.Rza, T.Salahov, T.Nərimanbəyov, B.Vahabzadə, Anar və başqalarının yaradıcılığına münasibət bildirmiş, dəyərli fikirlər söyləmişdir.

Öz növbəsində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev də böyük söz ustadının yaradıcılığı haqqında "dünya ədəbiyyatı xəzinəsinə gözəl əsərlər bəxş etmiş, Çingiz Aytmatov həm Qırğızıstanın, həm də bütün türk dünyasının fəxridir", – fikrini söyləməklə, ədibə yüksək qiymət vermişdir.

2008-ci il Qırğızıstan Respublikasında "Çingiz Aytmatov ili" elan edilmiş, Bakıda da bu il çərçivəsində müxtəlif rəsmi tədbirlər təşkil edilmiş, Azərbaycan Respublikasının Prezidenti cənab İlham





Əliyev həmin münasibətlə onu "Dostluq" ordeni ilə təltif etmiş, görkəmli yazıçının yaradıcılığına böyük dəyər vermişdir.

Çingiz Aytmatovun yaradıcılığı nəinki Mərkəzi Asiya və türk dünyası ölkələrinin, eləcə də bütün dünya oxucularının hər zaman diqqət mərkəzində olmuşdur. Azərbaycan ədəbi-ictimai fikrinin tanınmış nümayəndələri hər zaman dünya şöhrətli qırğız yazıçısının yaradıcılığına xüsusi dəyər vermiş, elmi araşdırmalar aparmış, əsərlərini doğma dilimizə tərcümə etmişlər. Onun ssenariləri əsasında bir sıra əsərləri ekranlaşdırılmışdır.

Qeyd edək ki, keçmiş Sovetlər Birliyinə daxil dövlətlər arasında Qırğızıstandan və Rusiyadan sonra Çingiz Aytmatovun əsərləri ən çox Azərbaycanda çap edilmişdir. Onun əsərlərinin Azərbaycan dilinə tərcüməsi sahəsində C.Əlibəyov, İ.İbrahimov, V.Əlixanlı, V.Rüstəmzadə, X.Əliyev, Q.Musayev, M.Osmanoğlu, İ.İlyaslı, T.Quliyeva, Ə.Əylisli, M.Osmanoğlu, M.Həsənov və başqalarının xidmətlərini xüsusi qeyd etmək lazımdır. Çingiz Aytmatovun Azərbaycan dilində ilk əsəri 1961-ci ildə "Uşaqgəncnəşr" nəşriyyatı tərəfindən çap olunmuş "Cəmilə" povesti olmuşdur və bundan sonra yazıçının "Köşək gözü" povestlər məcmuəsi 1965-ci ildə, "Ana tarla" povesti 1966-cı ildə, məşhur "Əlvida Gülsarı" povesti 1969-cu ildə, "Ağ gəmi; Dəniz kənarıyla qaçan Alabaş" povestlər məcmuəsi 1980-ci ildə, "Dünya ədəbiyyatı kitabxanası" seriyasından "Gün var əsrə bərabər" roman və povestlər məcmuəsi 1987-ci ildə çap olunmuşdur. Böyük ədibin əsərlərindən "Qiyamət", "Dağlar və düzənlərdən məsəllər", "Çətinlikli keçid", "Ana torpaq", "Çingiz xana küsən bulud", "Qırmızı alma", "Ağ yağış", "Üz-üzə", "Baydamtal çayında" müstəqillik dövründə ölkəmizdə nəşr edilmişdir. Onun əsərləri bütün dünya ictimaiyyəti və Azərbaycan oxucuları tərəfindən bu gün də sevə-sevə oxunur.

Məlum olduğu kimi, bu gün Azərbaycan Milli Kitabxanasının zəngin ədəbi fondunun bir hissəsini dünya şöhrətli, istedadlı yazıçıların, şairlərin əsərləri təşkil edir. Bu fondda dünyanın 40-dan çox dilində, müxtəlif ölkələrdə çap edilmiş zəngin ədəbiyyat mühafizə olunur və oxucuların istifadəsinə təqdim edilir. Onların arasında Azərbaycan və dünya dillərində Çingiz Aytmatovun irsini əks etdirən 200-ə yaxın kitab, məqalə, ədibin zəngin yaradıcılığına dair elmi araşdırmaların nəticəsi olan dissertasiya və avtoreferatlar, həyat və

fəaliyyəti haqqında materiallar var. Aytmatovun xarici ədəbiyyat fondunda toplanmış qırğız, türk, ingilis, fransız, alman və rus dillərinə tərcümə olunmuş əsərləri isə xarici dilli oxucularımızın mütaliə təminatında mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Milli Kitabxanasının saytı (www.anl.az) və elektron kataloqdan istifadə etməklə fonddakı ədəbiyyat, o cümlədən, Aytmatovun əsərləri üzrə axtarış aparmaq mümkündür. Bundan əlavə, Milli Kitabxananın elektron kitabxanasına daxil olmaqla, bir çox kitabı, həmçinin, görkəmli ədibin əsərlərini onlayn oxumaq olar.

Azərbaycan Milli Kitabxanası oxucuları və geniş ictimaiyyəti fondda olan nəşrlərlə mütəmadi olaraq məlumatlandırmaq məqsədilə, sərgi zalında görkəmli şəxslərin yubileyləri və aktual mövzularla bağlı geniş və zəngin kitab sərgiləri və guşələr də təşkil edir. Görkəmli yazıçının zəngin ədəbi-publisistik fəaliyyəti bu günə qədər yubiley sərgilərində, türk dünyası yazarları irsinin təbliği ilə əlaqədar sərgi-yarmarkalarda geniş oxucu kütləsinə təqdim edilmişdir. Bu il də yazıçının 90 illik yubileyi ilə əlaqədar olaraq, kitabxanada bu qəbildən olan sərgilərin və bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur.

**Kerim Tahirov**

**THE PUBLICATION OF CHINGIZ AITMATOV'S WORKS IN AZERBAIJAN**

**SUMMARY**

In the article is explored the publishing issues of the works by world famous Kyrgyz writer Chingiz Aitmatov.

**Керим Тахиров**

**ИЗДАНИЕ В АЗЕРБАЙДЖАНЕ ПРОИЗВЕДЕНИЙ ЧИНГИЗА АЙТМАТОВА**

**РЕЗЮМЕ**

В статье привлечены к исследованию вопросы издания в Азербайджане произведений великую известного киргизского поэта Чингиза Айтматова.